Neçə vaxtdan bəri ürəyimdə gəzdirdiyim bir arzunu bu gün gerçəkləşdirmək istəyirəm. Bu arzu neçə illərdən bəri öz fərqli yazılarıyla Azərbaycan jurnalistikasında xüsusi yeri olan Şakir Əlifoğlu haqqında nə isə yazmaqdır. Bu mövzunu gecikdirməyimin bir səbəbi də onun xarakterinə, yaradıcılığına zəif qiymət vermək qorxusu olub. Tanrıya şükür olsun ki, bu mövzuya başlamağa özümdə hünər tapa bildim.

Şakir Əlifoğlu 25 aprel 1969-cu ildə Cəbrayıl rayonunun Dağtumas kəndində bu dünyaya təşrif buyurub. 1989-1995-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxuyub. 2006-cı ilin noyabrında «Azərbaycan məişət nağıllarında şah obrazı» mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Hazırda AMEA-nın Folklor İnstitutunun Mifologiya şöbəsində aparıcı elmi işçi vəzifəsindədir. 10 ildən çoxdur ki, Cəbrayıl rayon İcra Hakimiyyətinin orqanı olan "Xudafərin" qəzetinin baş redaktorudur.

Qeyd etdiyim bu cümlələr Şakir Əlifoğlunun qısa tərcümeyi-halıdır. Mən tərcümeyi-haldan sonra öz tanıdığım Şakir Əlifoğlunu sizə təqdim etmək istəyirəm. Onu uşaq vaxtından tanıyan bir insan kimi xarakterini gözünüz önündə canlandırmağa çalışacağam. O insan məktəb illərində savadına görə bütün məktəbə nümunə olmuşdur. Heç bir fəndən bəlkə də yeganə şagirddir, heç vaxt «üç» almayıb. Onun ən aşağı qiyməti «dörd» olmuşdur. Onun baxışlarında axtarışda olan bir insanın cizgiləri vardır. O daima nəyi isə öyrənmək, öyrəndiklərini olduğu cəmiyyətlə paylaşmaq istəyir. Ətrafında olan insanlara qayğısı bəzən onu maddi sıxıntılarla üz-üzə qoysa da, o, bunu heç vaxt büruzə vermir. Həyatın mənəvi şələsini hər zaman ürəyinin ağrılarıyla ovudur özünə təsəlli lazım olanda da o, kiməsə ümid yeri olmağa çalışır. Şakir Əlifoğlunda olan bu xarakter nəsildən, kökdən gəlir desək yanılmarıq. 1993-cü il aprelin 1-də qardaşım Məmmədov Söhrab Əhməd oğlu canından, qanından çox sevdiyi vətənin yolunda şəhid oldu. Onu məzara tapşırıb evə dönəndən sonra atama ilk yaxınlaşanlardan bəlkə də birincisi Əlif kişi olmuşdur. O, atamı təkidlə məcbur eyləmişdi ki, Qırx gün ərzində naxır nobatına getməsin. Öz uşaqlarımı göndərərəm sizin əvəzinizə demişdi. O, həssaslıqla başa düşmüşdü ki, oğlunu itirən bir ata tək qalarsa, özünə nə isə edə bilər. Bu, Əlif dayının həssaslığının

# Şakir Əlifoğlu və söz



nəticəsi idi. Bu həssaslığı, insana yanaşma tərzini, insanların dar günündə yanında olmağı Şakir Əlifoğlu yaxşı mənada desək, atasından oğurlamışdı. Onun yaradıcılığı hansı sahədən yazsa, özünü açıq-aydın göstərir. Onun hər cümləsində sözə məsuliyyətlə yanaşma özünü qabarıq şəkildə büruzə verir. Şəhidlərin haqqında onun qələmə aldığı hər məqalə şəhidin yaxınlarına sanki bir təsəlli məktubudur. Sətirlər üzərində gəzən baxışların kədəri o sözlərin təsirində öz ağırlığını sanki bir az azaldır. Oxunan hər cümləsi həssas bir ürəyin yanğısını üzə çıxardır. Oxuyan kimi görürsən ki, bu məqalə say xətrinə yazılmayıb. O, bütün gücüylə sətirləri oxuyan insana ürəyinin səsini çatdırmaq istəyir. Demək olar ki, hər dəfə də bu istəyinə nail olur. Onun müxtəlif müəlliflərin əsərlərinə yanaşması tam fərqlidir. O, oxuduğu hər yazını ürəyinin süzgəcindən keçirir. Müəllifin qəhrəmanlarının yaşadığı həyatın acılığını, şirinliyini bütöv şəkildə ələkdən keçirib sonra o yazı haqqında fikrini ortaya qoyur. Şakir Əlifoğlunun uğurlarına yol açan onun yaratmış olduğu yazıların hər birində gerçəkliyin daha qabarıq şəkildə ortaya qoyulmasıdır. İstər sevgi haqqında gedən yazılar olsun, istərsə də həyatın çətinlikləri haqqında gedən yazılar olsun, hər birində qəhrəmanın xarakteri onun üçün daha vacibdir.

Şakir Əlifoğlu qəhrəmanını yaxşı bir xüsusiyyətinə görə cəmiyyətə sevdirməyi bacarır. Pis xüsusiyyətə görə onu qınaq obyektinə çevirir. Sevilən hər bir qəhrəman onun yazılarının baş qəhrəmanı olur. Budur əsl yaradıcılıq yolu. Budur əsl vətəndaşlıq yolu. Bu yol Şakir Əlifoğlu yoludur. Ona bu yolda uğurlar arzulayıram, sənətinin, sözünün qədrini bilən jurnalist kimi ona parlaq gələcək arzulayıram. 2019-cu ilin yanvarın 6-da yaradıcılıq gecəsi keçirdim. Şakir Əlifoğlu da o tədbirin öncüllərindən biri kimi mənə sənət uğurları arzuladı. Həmin arzuları mən də ona arzulayıram. Əlli yaşa çatmağına lap az qalıb Şakir Əlifoğlunun. Ona yeganə tək bir arzum budur ki, onu sənət uğurları tərk etməsin. Daim onu xoşbəxt görüm. Çünki o, bütün arzularıma layiqdir. Əlli illikdə görüşənədək.

Əhmədoğlu *Malik şair-publisist*
*18 yanvar 2019-cu il*